


*İşğaldan azad olunmuş ərazilərin gələcəyi elə planlaşdırılır ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, əhali öz dədə-baba torpağında təhlükəsiz yaşasın*

# BÖYÜK QAYIDIŞ

## əbədi olacaq

44 günlük Qarabağ savaşında ordumuzun başladığı əks-hücum əməliyyatı nəticəsində torpaqlarımız erməni işğalından azad olundu. Bu gün işğaldan azad etdiyimiz torpaqlarda ermənilərin basdırdıqları minaların tapılıb zərərsizləşdirilməsi istiqamətində mütəxəssislərimiz var gücləri ilə çalışırlar. Amma hələ də Qarabağda çoxsaylı problemlər qalır ki, onlardan biri də minalar məsələsidir. Azərbaycan minalarla ən çox çirklənmiş 10 ölkə sırasındadır. Hazırda torpaqların minalardan təmizlənməsi problemi var. Azad edilən ərazilərin yenidən qurulması üçün ilk növbədə ərazilər minalardan təmizlənməlidir. Minalanmış ərazilərin xəritəsinin verilməməsi ilə bağlı problem də hələ də gündəmdədir. Ermənilər basdırdıqları minaların xəritələrini vermirlər. Bu da insan həyatı üçün təhlükə mənbəyi olaraq qalması ilə yanaşı, eyni zamanda, Ermənistanın özünün də imza atdığı Cenevrə Konvensiyasına görə hərbi cinayətdir.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib. Vətən müharibəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza ataraq, ölkəmizin işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur olub. Dövlətçiliyimizin ən şərəfli səhifəsi olan bu tarixi Zəfərlə Azərbaycan düşmən ölkənin 30 illik işğalına son qoymaqla yanaşı, həmçinin bir güllə atmadan, bir şəhid vermədən Ağdam, Kəlbəcər və Laçını işğaldan azad edib. XXI əsrin yeni müharibə modelini bütün dünyaya təqdim edən Azərbaycan qlobal iqtisadi proseslərdə də yeni reallıqlar yaradıb, yeni iqtisadi münasibətlər və beynəlxalq iqtisadi çağırışlar mühiti formalaşdırıb.

İşğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdışın təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən kompleks fəaliyyət planlarının hazırlanması ilə bərabər, artıq bu istiqamətdə olduqca əhəmiyyətli praktiki fəaliyyətə də başlanılıb. Bu gün yeni dövrün başladığını, Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimizin zaman olduğunu vurğulayan Prezident İlham Əliyev deyir ki, ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti, təsir imkanlarımız artsın və Azərbaycan xalqı daim təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın. Azərbaycan artıq postmüharibə dövründə bütün qüvvəsini quruculuq, bərpa işlərinə, infrastruktur layihələrinin reallaşdırılmasına yönəldib. İşğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi istiqamətində işlər də davam edir. Böyük Qələbəmizin ötən dövrdə işğaldan azad olunan Ağdam rayonunda 97 min, ardınca Füzuli və Zəngilanda 92 min minanın xəritələrinin əldə edilməsi dövlət başçımızın diplomatik qələbəsinin bariz ifadəsidir. "Biz, əlbəttə, ilk növbədə, mina təmizləmə işləri ilə məşğul olmalıydıq və məşğul oluruq", - deyən dövlətimizin başçısı Daşkəsənə səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə qeyd edib ki, bu, həm çox vaxt, həm də böyük vəsait aparır. Əfsuslar olsun ki, müharibədən sonra 150-yə yaxın Azərbaycan vətəndaşı minalara düşərək ya həlak olub, ya da öz sağlamlığını itirib. Azərbaycan ərazilərini kütləvi şəkildə minalarla və təhlükəli döyüş sursatları ilə çirkləndirən, yaşayış məskənlərini, kəndləri, şəhərləri viran edərək yer üzündən silmiş faşist ideologiyasından bəhrələnən Ermənistanın bütövlükdə minalanmış ərazilərin xəritələrini Azərbaycana verməməsi işğaldan azad edilən ərazilərimizdə layihələrin daha sürətlə və təhlükəsiz şəkildə aparılmasına maneələr yaradır.

# BÖYÜK QAYIDIŞ əbədi olacaq



***İşğaldan azad olunmuş ərazilərin gələcəyi elə planlaşdırılır ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, əhali öz dədə-baba torpağında təhlükəsiz yaşasın***

Mina xəritələrinin Azərbaycana verilməməsinin və bunun hansısa şərtlərlə verilməsinin əxlaqsızlıq, mənəviyyatsızlıq, vicdansızlıq olduğunu vurğulayan Prezident İlham Əliyev deyib ki, bu, normal insani davranışa zidd olan yanaşmadır. "Bu, bir daha Ermənistan rəhbərliyinin bizə qarşı olan nifrətinin, düşmənçiliyin təzahürüdür. Çünki mina xəritələrini verməməsinin heç bir əsası yoxdur. Müharibə qurtarıb, biz qalib gəlmişik. Ermənistan məğlub olub, bu məğlubiyyətlə barışıb, barışmalı olub, məcbur etdik. İndi mina xəritələrini verməməsi nə məqsəd güdür? Daha çox azərbaycanlılar həlak olsun, daha çox insanlar əlil olsunlar. Bu, düşmənçilik deyil, nədir? Bu, bir daha onların xislətini göstərir", - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev vurğulayıb ki, mülki əhali minaların hədəfi olmamalıdır. Beynəlxalq humanitar hüquqa əsasən Ermənistan Azərbaycanın mülki əhalisinin hüquqlarını kobud şəkildə pozur. O, həmçinin beynəlxalq qanunları pozaraq mina xəritəsini Azərbaycana təqdim etməkdən də imtina edir. Minalar Azərbaycan əhalisinə qarşı qırğındır və işğaldan azad edilmiş ərazilərin bərpasını ləngidir. Minaların xəritəsinin Ermənistan tərəfindən təqdim edilməməsi, eyni zamanda regionda sülh və etimadın yaradılmasının qarşısını alır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır. Məqsəd yalnız ölkə səviyyəsində deyil, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir. 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımızda tezliklə canlanmanın və məskunlaşmanın şahidi olacağıq. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması işğaldan azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlinin qoyulması ilə yanaşı, həm də beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.

Qarabağın dirçəlişi və işğaldan azad olunmuş ərazilərimizə qayıdış isə çoxdan başlayıb. Belə ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasının təməli hələ bir neçə il əvvəl Cəbrayılın Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə qoyulub. Hələ o zaman bu kiçik kəndin timsalında xalqımız gördü ki, Prezident İlham Əliyev tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək və həm də onları yenidən dirçəldəcək. Hər birimiz o vaxt İlham Əliyevin qələbə və quruculuq əzminin, qətiyyətinin şahidi olmuşduq. İndi isə bütün azad olunmuş şəhər və rayonlar dirçəliş yolundadır. Hələ müharibənin davam etdiyi günlərdə İlham Əliyevin göstəriş və tapşırıqları ilə azad olunmuş ərazilərdə kommunikasiyaların bərpasına başlanılıb. Çox qısa müddətdə Qarabağın qapısı adlanan Füzulidə yeni hava limanının tikilməsi, işğaldan azad edilən ərazilərdə bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi, o cümlədən elektrik enerjisi ilə təminat və yol infrastrukturunun yenidən qurulması olduqca təqdirəlayiqdir. Bütün bunlar onu göstərir ki, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı Azərbaycan dövləti üçün prioritet məsələdir.

Hazırda bölgənin elektrik enerjisi ilə tam təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Vətən müharibəsi başa çatdıqdan cəmi bir neçə ay sonra Qarabağın elektrik enerjisi zəncirinin əsas hissələrini təşkil edən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyası, 110/35/10 kilovoltluq Şuşa, Füzuli və Şükürbəyli yarımstansiyalarının işə salınması proseslərin sürətlə aparılmasının göstəricisidir. Cəbrayıl rayonu ərazisində - Araz çayı üzərində yerləşən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları ilə bağlı işlər yekunlaşmaq üzrədir. Ağdam və Şuşa şəhərinin baş planı təsdiq olunub. Şuşa şəhəri tamamilə yenidən qurulur. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin bərpasını və yenidən qurulmasını strateji vəzifə kimi müəyyən edib və bu prosesdə müasir innovativ yeniliklərin tətbiq edilməsini əsas hədəflərdən biri kimi irəli sürüb. İşğaldan azad edilən ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir. Bu gün qürurla deyə bilərik ki, qaçqın və məcburi köçkünlərin 30 illik həsrətlərinə və əziyyətlərinə son qoyulub. Ərazilərin sürətlə bərpa olunması və müharibədən əvvəl orada yaşamış bütün insanların doğma yurdlarına qayıtmaları üçün işlər görülür. İnanırıq ki, tezliklə sönmüş ocaqlarda həyat yenidən qaynayacaq. Bu inamı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasət yaradır.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 18 mart.- S.1;4.